Masallıda kənd təsərrüfatı yenidən prioritet sahəyə çevrilir

Masallı Azərbaycanın qədim yaşayış məskənlərindən sayılır. Onun özünəməxsus coğrafi mövqeyi və təbiəti var. Cənub-qərbdən dağlara, şərqdən bol nemətli Xəzərə, digər tərəfdən isə Muğana qovuşur. Yeraltı, yerüstü nemətlərlə zəngindir bu torpaq. Mineral suları, bulaqları, şəlalələri, çayları, dəmirağaclı, palıdlı, nil və digər növ ağaclı zümrüd meşələri bir ayrı aləmdir. Dünyanın müxtəlif qitələrindən quşların qışlamağa gəldiyi məşhur Qızılağac qoruğunun da bir hissəsi bu rayonun ərazisində yerləşir. Ən başlıcası isə cəsur, qeyrətli, zəhmətkeş övladları olan Masallı respublikamızın əhalisi ən sıx rayonlarından biridir. Ərazisi 271 kvadratkilometr, əhalisi 220 min nəfərdən çoxdur. Bir kvadratkilometrə 305 nəfərdən çox adam düşür ki, bu da dünya üzrə analoji göstəricidən 7 dəfə artıqdır.

Ümumilikdə rayonda 43 min 291 hektar kənd təsərrüfatı təyinatlı torpaq sahəsi mövcuddur ki, bunun da 24 min 7 hektarını əkin, 1291 hektarını çoxillik bitkilər, 2 min 22 hektarını biçənəklər və 3 min 659 hektarını örüş torpaqları təşkil edir. Sovetlər birliyi zamanında rayonda hər il orta hesabla 150 min ton tərəvəz, 10 min ton yaşıl çay yarpağı, 4 min 910 ton meyvə və giləmeyvə, o cümlədən 232 ton sitrus meyvələri və digər kənd təsərrüfatı məhsulları istehsal olunurdu. Lənkəran, Astara rayonları ilə yanaşı, buranın da tərəvəzi keçmiş SSRİ-nin, xüsusilə Rusiyanın müxtəlif şəhərlərinə göndərilirdi. Yerli əhalinin başlıca gəlir yeri kolxoz və sovxozlar olmuşdur.

Kənd əməkçiləri çəkdikləri zəhmətin əvəzində o dövrün yüksək mükafatlarına layiq görülmüşlər.

Artıq Azərbaycan 25 ildən çoxdur ki, müstəqildir. Bu illər xalqımız ulu öndər Heydər Əliyevin uzaqgörən siyasəti ilə möhtəşəm uğurlara imza atmışdır. Ən başlıcası isə böyük şairimiz M. Hadinin təbirincə desək, "Var millətimin imzası imzalar içində". İndi dünyanın əksər ölkələrində Azərbaycanın diplomatik nümayəndəlikləri var. BMT, Avropa Şurası və digər beynəlxalq təşkilatların binaları qarşısında üçrəngli bayrağımız vüqarla, əzəmətlə dalğalanır.

Bu illər ərzində neftdən gələn gəlirlərin mühüm bir hissəsi illərlə baxımsız qalan bölgələrimizin inkişafına yönəldilmişdir. Bununla əlaqədar ölkə başçısı İlham Əliyev 2004-cü ildə regionların sosial-iqtisadi inkişafına dair ilk Dövlət Proqramını imzalamışdır. Ardıcıllıqla bu iş indi də davam edir. İcra olunan 3-cü Dövlət Proqramı çərçivəsində rayonlarda yeni layihələr həyata keçirilir. Aparılan tikinti, abadlıq, quruculuq işləri nəticəsində rayon mərkəzləri, qəsəbə və kəndlər simasını dəyişir, daha abad və gözəl olur. Bu, Masallı rayonunun timsalında da aydın görünür. Tikilən binalar, salınan park və xiyabanlar, yenidən qurulan küçələr rayon mərkəzinə yeni görkəm verir. Desək ki, burada həyat bulaq kimi qaynayır, aşıb-daşır, yanılmarıq. Bir neçə layihə eyni vaxtda icra olunur. Bunları görən, eşidən əslən Masallıdan olub Rusiyada və digər ölkələrdə yaşayan adamlar doğma yurdlarına gəldikdə onu tanımaqda çətinlik çəkirlər, doğulub boya-başa çatdıqları dədə-baba ocaqları ilə qürur hissi keçirirlər. Bütün bunlar dövlətin, onun başçısının Masallıya göstərdiyi diqqət və qayğının təzahürüdür. Prezidentin rayona hər səfəri mühüm hadisəyə, əsl bayrama çevrilir. Təkcə ötən ilin sentyabrında cənab İlham Əliyev rayona növbəti səfəri zamanı bir neçə mühüm obyektin - "Asan Həyat" kompleksinin, Bayraq meydanı və Dövlət Rəmzləri muzeyinin, Uşaq incəsənət məktəbinin, Tarix diyarşünaslıq muzeyinin və Masallı şəhərinin içməli su təchizatı layihəsinin açılış lentlərini kəsmişdir.

Qəsəbə və kəndlərə gedən yollar da yenidən qurulur, onlara qaz xətti çəkilir, əhalinin elektrik enerjisi ilə təminatı yaxşılaşdırılır, yeni məktəblər, uşaq bağçaları və digər sosial binalar inşa olunur. Bu cür işlər bir gün belə, ara vermir. Hazırda rayon mərkəzi xəstəxanası əsaslı təmir olunur, şəhər 2 saylı uşaq bağçası, rayon məhkəməsi, "Azərişıq"ın rayon şöbəsi üçün inzibati binalar, Tüklə yarımstansiyası tikilir.

İndi dövrün, zamanın tələbi başqadır. Dünyada gedən məlum proseslər ölkələrin iqtisadiyyatına, xalqların yaşayış tərzinə təsirsiz ötüşmür. Neftin qiymətinin ucuzlaşması Azərbaycanın bu sahədən əldə etdiyi gəlirlərinin aşağı düşməsinə səbəb olmuşdur. Bu itkini əvəzləmək üçün ölkə başçısı çevik siyasət yürüdərək ehtiyat mənbələrinin işə salınması üçün tədbirlər görməyə başladı. Kənd təsərrüfatını inkişaf etdirməklə idxaldan azad olmaq, valyutanın xaricə axınının qarşısını almaq, əhalini keyfiyyətli, ekoloji cəhətdən təmiz ərzaq məhsulları ilə təmin etmək, rəqabətədavamlı Azərbaycan məhsullarının istehsalına nail olmaq üçün mərkəzi və yerli icra orqanları qarşısında mühüm vəzifələr qoyuldu.

Bəs, Masallı bu vəzifələrin öhdəsindən necə gəlir? Rayon icra hakimiyyəti başçısı Rafil Hüseynov deyir ki, Masallı rayonunda əhalinin 90 faizə qədəri kənddə yaşayır və əkinçiliklə məşğuldur: "Prezident İlham Əliyevin qarşıya qoyduğu vəzifələrin icrası ilə bağlı rayonda kənd təsərrüfatının inkişaf etdirilməsi və gəlirli sahəyə çevrilməsi günün vacib olan prioritet məsələsidir. Rayon üzrə 24 min 929 hektar yararlı torpaq sahəsi var. Onun 9 min hektarı uzun müddətdir ki, mülkiyyətçilər tərəfindən əkilmir. Əkilən torpaqların 12 min hektarı taxıl sahələridir. Lakin bölgənin torpaq-iqlim şəraiti az əməktutumlu olan taxılçılığı səmərəsiz və əsasən qeyri-rentabelli edir. Həmin sahələrdə tərəvəz əkilərsə, taxılçılıqdan fərqli olaraq, 120-130 adam əvəzinə, 300 adam çalışar və gəlir də qat-qat çoxalar".

R.Hüseynovun sözünə qüvvət - əvvəllər rayon tərəvəzçilik və çayçılıq üzrə ixtisaslaşmış, burada 6 min hektarda tərəvəz, 3 min hektarda üzüm yetişdirilmişdir. Hazırda isə tərəvəz sahələrinin həcmi 2 min 500, üzüm sahələri 20 hektardır. 100 hektarda çay plantasiyasının salınmasına başlanılmışdır. Kəndlərdə yaşayan əhalinin 90 faizinin dolanışığı torpaqdandır. Ona görə də burada hər qarış torpaqdan səmərəli istifadə olunmaqla hektarın məhsuldarlığının artırılması mühüm əhəmiyyət daşıyır. Rayonda ənənəvi sahələrdən olan çəltikçiliyin, tütünçülüyün, baramaçılığın, sitrus və subtropik meyvəçiliyin inkişaf etdirilməsi üçün də geniş imkanlar mövcuddur.

RİH başçısı sözünə davam edərək dedi ki, ilkin mərhələdə 7 min hektar tərəvəz sahəsinin və 1500 hektar çay plantasiyasının salınmasını nəzərdə tutmuşuq: "Bu istiqamətlərdə ilk addımlar atılmışdır. Belə ki, yeni texnologiyalar əsasında "Azərsun Holdinq" tərəfindən Qızılağac kəndində 150 hektar tərəvəz sahəsi, Kolatan kəndində isə 100 hektar çay plantasiyası salınmış, eyni zamanda, keçmişdə mövcud olmuş 5 hektar çay plantasiyasında bərpa işləri aparılmışdır. Həmin təsərrüfatlarda 600 nəfər üçün yeni iş yeri açılmışdır. Nəzərdə tutulan 7 min hektarda əkinlərin aparılması nəticəsində 21 minə yaxın iş yeri açılacaq. Deyilən sahələrin inkişafının getdikcə genişlənməsi kənd təsərrüfatı emalı sahələrinin də inkişafına səbəb olacaq. Cari ildə rayonda 100 hektar sahədə çəltik, 25 hektarda çiyələk əkilməsi nəzərdə tutulub. Çiyələk sahələrində artıq birinci yığım aparılır".

Faraş tərəvəz, giləmeyvə və sitrus bitkiləri əkinlərinin genişləndirilməsi rayonda ən azı 5 min ton tərəvəz, 5 min ton sitrus meyvələrini saxlamaq gücünə malik soyuducu anbarın, topdan və pərakəndə satış ekspozisiya bazarının, habelə bu məhsulların ilkin emalı üçün müəssisənin tikilməsi zərurətini yaradır. Ölkə başçısının "Ərzaq məhsullarının tədarükü və təchizatı" Açıq Səhmdar Cəmiyyətinin yaradılması haqqında 11 aprel 2016-cı il tarixli sərəncamına əsasən, bu qurumun rayonda regional tədarük mərkəzi yaradılmışdır. Hazırda Masallıda fəaliyyət göstərən 300 nəfərə yaxın fermer və torpaq mülkiyyətçisi bu təşkilatla sıx əlaqə yaradaraq yetişdirdikləri məhsullar haqqında ona məlumatlar vermişlər.

Rayon kənd təsərrüfatı idarəsinin rəisi Seymur Nuriyevlə birlikdə tarlada, istehsal sahələrində məhsul yetişdirən əmək adamları ilə görüşmək, yerlərdəki vəziyyəti əyani şəkildə görmək məqsədilə yola çıxdıq. İlk olaraq "Uğur-SV" firmasına baş çəkdik. Təsərrüfat Ələt-Astara magistral şose yolunun kənarında yerləşir. Ora çatarkən bizi ucaboylu, sarışın, yaşı təxminən 40-45 arasında olan bir adam qarşıladı. Kənd təsərrüfatı idarəsinin rəisi bizi tanış etdi: "Firmanın sahiblərindən biri - Cəsarət Əzizovdur. Orta məktəbdə bir sinifdə oxumuşuq". Ətrafda qızğın iş gedirdi. Yaşıl cərgələr arasında qızlar, gəlinlər bir-bir yığıb doldurduqları çiyələk vedrələrini sahənin kənarına gətirir, boş vedrələri götürüb geri qayıdırdılar. Yığılan məhsul ayrı briqadanın qızları tərəfindən relslər üstündəki arabaya yüklənir, sonra da soyuducu kameradakı çeşidləmə və qablaşdırma sexinə göndərilirdi. Buradakı iş prosesi zavod və fabriklərdəki konveyer prosesini yada salırdı. Estetik görkəmi ilə göz oxşayan çiyələk dənələri çeşidlənərək xüsusi qablara yığılır, soyutma kamerasına verilirdi. Kamera-nın elektrik enerjisi ilə etibarlı təchiz olunması üçün obyektə elektrik xətti çəkilmiş, əlavə olaraq generator qoyulmuşdur. Soyutma kamerasında məhsulun temperaturu 27 dərəcədən 2 dərəcəyə endirilir. Öyrənirik ki, belə bir soyuducu kamera bölgədə yeganədir. Soyudulan məhsulu isə 10 gün ərzində nəzərdə tutulmuş istənilən yerə çatdırmaq mümkün olur.

Sahənin kənarında palıd ağacının altındakı kölgəlikdə dayanan xüsusi yükdaşıyan maşın (avtorefrijator) soyudulan məhsulu götürməyi gözləyirdi. Nübar çiyələk daxili bazarlar ilə bərabər, Rusiya Federasiyasına da yola salınır. Bir çox yerdən fərqli olaraq, firmanın çiyələk sahələrinin üstünə karkaslar vasitəsilə polietilen çəkilməsi diqqətimizi cəlb etdi. Öyrəndik ki, bu, yetişən məhsulu yağışdan qorumaq üçündür. Çiyələk may ayında yetişir. İlin bu vədəsində isə yağışlar çox olur. Keçən il belə örtüyün olmaması ucbatından yetişdirilən məhsulun 50 faizdən çoxu çürüyüb xarab olmuşdu.

"Uğur-SV" firması 2013-cü ildə Səxavət Əzizov və Əbdül İsmayılov tərəfindən yaradılıb. Gəlir gətirən bitki olduğunu nəzərə alıb çiyələk sahələrini ilbəil genişləndirərək 20 hektara çatdırıblar. Əsasən, Sarandres (İspaniya), Aldion (Türkiyə), Fortna (Hollandiya) sortları əkilir. Becərmə zamanı mütərəqqi üsullardan, aqrotexniki tədbirlərdən səmərəli istifadə olunur. Hər bir kol damcı üsulu ilə suvarılır. Təcrübəli aqronom, Türkiyənin Antaliya şəhərində yaşayan Atilla Tükəl vaxtaşırı olaraq bura dəvət olunur, çiyələyin becərilməsi ilə bağlı öz məsləhətlərini verir. İlk nübar məhsul

may ayının 8-də yığılıb. Həmin məhsul Bakı sakinləri üçün göndərilib. Çiyələk yığımında hər gün 250-300 nəfər iştirak edir.

Növbəti getdiyimiz yer Xırmandalı kəndi oldu. Yol boyu hər tərəfdə qızğın iş gedirdi. Asfalt yoldan aşağı düşüb torpaq yolla irəlilədik. Sahənin kənarında bir nəfər dayanmışdı. O, torpaq mülkiyyətçisi, təcrübəli təsərrüfatçı, ali təhsilli kənd təsərrüfatı mütəxəssisi Məhərrəm İbrahimov idi. Sovetlər zamanında kolxoz sədri işləyib. Ailə üzvləri ilə birlikdə paylarına 4,5 hektar torpaq sahəsi düşüb. Bundan əlavə, 8 hektar da icarəyə götürüb. Keçən il 1,3 hektarda tütün əkib. Yetişdirdiyi tütün yarpaqlarını qurudaraq Şəkidəki "İlham-M" MMC-yə verib. 1 hektardan 2 min 100 manat xalis gəlir əldə edib. Cari ildə isə 10 hektarda tütün əkib. Biz orda olarkən 1-ci və 2-ci becərməni başa çatdırmışdı. Tütün yetişdirməyin texnologiyasından danışaraq bildirdi ki, tütünün şitilini həyətyanı sahəsində düzəltdiyi xüsusi yerdə əkib cücərdir. Özünə lazım olan qədərini götürür, qalanını isə satır. Rayon üzrə bu il ümumilikdə 6 nəfər torpaq mülkiyyətçisi 32,5 hektarda tütün əkmişdir ki, hamını da şitillə M.İbrahimov təmin etmişdir. Təcrübəli təsərrüfatçı eyni zamanda 1 hektarda badımcan, 1 hektarda yemiş-qarpız, 0,3 hektarda pomidor-xiyar əkib. Dedi ki, badımcan sahəsindən ilk nübar məhsulu dərib və qapıya gələn alıcıya bir yerdən münasib qiymətə satıb.

Kolatan kəndi Masallı rayonunun abad, mənzərəli yaşayış məntəqələrindəndir. Əraziyə daxil olarkən adamda xoş əhvali-ruhiyyə yaranır. Asfalt yolun hər iki tərəfindəki palıd ağacları onu yaşıl tunelə bənzədir. Bu ağacları nə vaxtsa əkmiş adamların ruhuna rəhmət demədən ötüb keçmək etinasızlıq olardı. Xeyirxah iş indi də davam edir, yolun digər hissələrinə də ağaclar əkilir.

Maşınımız kənddən çıxıb üzü dağlara tərəf yol aldı. Yolumuz Etibar Sadıqovun narıncı bağlarına idi. 5-10 dəqiqədən sonra yaşıllıqlar qoynunda tikilmiş binanın qarşısında dayandıq. Bu, E.Sadıqovun evi idi. O, bu il 10 min tutumlu inkubator alıb. Cücələri kənd əhalisinə satır. "Gələn il, uzağı o biri il gördüyünüz bu ərazidə toyuq damı tikmək fikrim var. Kənddə yaşadın, gərək hər şeyi biləsən" - dedi. İnkubator sexinin bir tərəfində 2 hektarlıq fındıq bağı var. Hacı Etibar keçən il bağdan nübar məhsul götürüb. Dediyinə görə, özünə lazım olan qədərini saxlayıb, qalanını qohuma, dosta-tanışa paylayıb. Payızda daha məhsuldar yeni fındıq ağacları əkmək fikrindədir.

Maşınlara oturub Hacının bir müddət bundan əvvəl saldığı naringi bağına yollandıq. Kənardan dağın başında külafirəngi tikildiyi diqqətimizi cəlb etdi. Kimin olduğunu soruşduq. Hacı gülümsəyərək: "İnşaallah, payızda gəlsəniz, tikilib tamamlandığını görəcəksiniz. Özüm yetişdirdiyim çaydan orada dəmləyib nuş edərik" - dedi. Ətrafa nəzər salanda adamın gözü, könlü rahatlanır. Buradan Xəzər dənizi də görünür. Hacı Etibar dedi ki, dəqiq yadımda deyil, gərək ki, 2008-ci il idi: "Rusiya televiziya kanallarının biri hansısa xarici ölkə rejissorunun çəkdiyi "Cənnət bura imiş" adlı təbiət filmini göstərirdi. Qısametrajlı filmdə səyyahlar cənnətin harada olduğunu axtara-axtara İran tərəfdən gəlib vətənimizin bu yerlərinə çıxırlar. Cənubun əsrarəngiz mənzərəsi, dənizi, bulaqları, çayları, şəlalələri, yaşıl meşələri, güllüçiçəkli yerləri onları valeh edir və belə qərara gəlirlər ki, cənnətin özü bura imiş".

Hacı Etibarın saldığı naringi bağının tingləri Cənubi Koreya sortudur. Bara düşdükdən sonra yüksək məhsul verir. Ağacları vaxtlı-vaxtında, xüsusilə yay aylarında suvarmaq üçün bağın bir tərəfində artezian quyusu qazdırıb. Buraya elektrik xətti çəkdirib, transformator qoydurub.

Sahibkarlıq, xüsusilə onun mühüm bir qolu olan kənd təsərrüfatı ilə məşğul olmaq bu insanın canında, qanındadır. Bir saatlıq söhbətimiz, təmasımız zamanı məlum oldu ki, orta məktəbi bitirdikdən sonra Lənkəran Subtropik Texnikumunda təhsil alandan sonra kəndlərinə qayıdıb. Əvvəlcə aviar (suçu) işləyib, sonra isə hərbi xidmətə gedib. Qayıdandan sonra onu çayçılıq briqadiri qoyublar. İşləyə-işləyə qiyabi yolla Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirib. 1993-cü ildə Masallı 3 nömrəli çay fabrikində baş texnoloq, 1994-cü ildə direktor vəzifələrində çalışıb. 1997-2005-ci illərdə isə Masallı Rayon İcra Hakimiyyətində işləyib. Sonra da sahibkarlıqla məşğul olmağa başlayıb. Lənkəran, Astara rayonlarında əhalinin becərdiyi yaşıl çay yarpağını alıb emal edib. Sahibkarı olduğu "L" fermer təsərrüfatının hazırda 4 hektar çay, 2 hektar fındıq, 2 hektar feyxoa, yarım hektar yeni salınmış narıngi bağı, xeyli sayda mal-qarası var. Etibar Sadıqov Masallı rayonunun, yaşadığı kəndin xeyir-şərində yaxından iştirak edir. Rayon ağsaqqallar şurası rəyasət heyətinin üzvü, YAP-ın kənd üzrə ilk təşkilatının, dini icmanın, məntəqə seçki komissiyasının sədridir.

Masallıda bir zamanlar çəltikçiliyə maraq böyük olmuşdur. Sovetlər zamanında isə rayonda daha çox tərəvəz istehsalına üstünlük verilmişdir. Amma son illər cənub bölgəsində, o cümlədən Masallıda çəltik əkilməyə başlanıb. Öz məhsulumuzun ləzzətini, ətrini görüb adamlar artıq nə yediklərinin fərqinə varırlar. Qiyməti xaricdən idxal olunan düyüdən baha da olsa, əhalinin ekoloji təmiz məhsul kimi yerli düyüyə üstünlük verməsi istehsalçıları düyü əkib-becərməyə həvəsləndirmişdir. Keçən il Masallıda 6 fiziki şəxs 8,65 hektarda çəltik əkmiş və 14,6 ton məhsul götürmüşdür. Şıxlar kənd sakini Qüdrət Əmirov daha yüksək nəticə əldə edərək 1,75 hektar əkin sahəsindən 8 ton çəltik yığmışdır. Məhsulun hamısını Astara rayonundakı çəltikdöyən dəyirmana kiloqramı 3 manatdan satmışdır. Döyülüb təmizlənən, düyü halına gətirilən məhsul isə 5-6 manata alınır.

Gəlirli olmaqla yanaşı, çəltik çətin zəhmət hesabına başa gəlir. Onun əkilməsi, becərilməsi suyun içərisində aparılır. Çəpmə üsulu ilə əkilənə nisbətən şitilköçürmə yolu ilə əkilən çəltik daha çox məhsul verir. Çəltik həm də istiliyi sevir. Şitil almaq üçün həyətyanı sahələrdə xüsusi yer hazırlanır. Oraya yanmış peyin verilir. Bu, şitilin sahəyə köçürülməsi zamanı onun qırılmasının qarşısını almaqla bərabər, lazım olduğu qədər istilik yaradır. Əkilən şitilliyin üstü aprel ayının ortalarına qədər polietilenlə örtülür. Həmin yer çiləmə yolu ilə günaşırı suvarılır. Mayın 10-dan başlayaraq şitil sahələrə köçürülür. Bu ildən çəltiyin döyülməsində də problem olmayacaq. Şıxlar kəndində tikilmiş dəyirman işə salınacaq.

Rayonda istixana təsərrüfatı da son illər xeyli genişləndirilmişdir. Onlardan biri Şərəfə kəndi ərazisindədir. İlkin Şükürovun rəhbərlik etdiyi bu təsərrüfat yüksək səviyyəli sənaye müəssisəsini xatırladır. Pomidor yetişdirilən müəssisədə kolların ətəklərinin budanması, uclarının vurulmasından başqa, qalan bütün işlər mexanikləşdirilib. 2012-ci ildə yaradılan istixananın əvvəl 2,5 hektar sahəsi olub. İndi isə 10 hektar sahəni əhatə edir. Təsərrüfat Türkiyə layihəsi əsasında inşa edilib. İstixanada il boyu 18-20 dərəcə arasında istiliyin olması vacib şərtdir. Belə olmadıqda kollar bar orqanlarını saxlamır. Sentyabr ayında əkilən kollar noyabr ayından növbəti ilin sentyabr ayına kimi bar verir. Bir koldan il ərzində 15 kiloqram məhsul dərilir. İstixanada çalışanlardan Dilbər Seyfullayeva, Aygün Hüseynova, Aynurə İbrahimova, Cəlal Əliyev, Elmira Qəmbərova, Xalidə Qasımova və başqaları işə daha məsuliyyətlə yanaşırlar. Yetişdirilən pomidorun 30-40 faizi yerli, qalanı isə Rusiya bazarlarına göndərilir.

Keçən əsrin 50-60-cı illərində rayonda barama da saxlanılmışdır. O vaxt salınan tut bağlarının bəzilləri indiyə qədər qalır və baramaçıların bir neçəsinin köməyinə çatır. Belə bağlardan biri Həsənli kəndindədir. Kənd sakini Xalid Hüseynov bir müddət öncə 2 qutu inkubasiya olunmuş barama qurdu götürüb. Onları tut bağının yanındakı köhnə inzibati binaların birində saxlayır. Xalid deyir ki, keçmişdə barama saxlayan həmkəndliləri tez-tez onun köməyinə gəlir, lazımi məsləhətlərini verirlər. Sən demə, barama qurdları 1 həftədən və ya 10 gündən bir yuxuya gedir və həmin gün qida qəbul etmirlər. Bu müddətlər qurdların yaşı hesab edilir və onlar 5 yaşında barama olurlar. Yerə səpilən əhəngin isə qarışqa və digər cücülərin qurdlara ziyan gətirməməsi üçün olduğunu öyrəndik. Bəli, bir el sözündə deyildiyi kimi: "Bəslənən atlaz olar tut yarpağından". Xalid bildirir ki, baramaçılıq gəlirli sahədir. Saxla, yemlə, pul qazan, ailəni dolandır. Daha bundan yaxşı nə ola bilər?! Bu il rayonda 12 nəfər tərəfindən 20 qutu barama bəslənilir.

Bütün bitkilərin yetişdirilməsində günəşlə bərabər, suyun olması vacib şərtdir. Elə buna görə də Viləşçay su anbarının ikinci növbəsinin tikintisi vacibdir. Həmin layihənin icrası nəticəsində minlərlə hektar torpaq sahəsi əkin üçün yararlı olacaq.

Rayonda əkinçiliklə yanaşı, ərzaq məhsulları sırasında xüsusi yeri olan ət, süd, yumurta istehsalının artırılması da diqqət mərkəzindədir. Mal-qaranın sayı ildən-ilə artır. Süni mayalanma yolu ilə inəklərdən keçən ilin təkcə dördüncü rübündə 188, cari ilin aprel ayı da daxil olmaqla 334 baş sağlam buzov alınmışdır.

Bir sözlə, indi Masallıda hansı kəndə, qəsəbəyə üz tutsan, qızğın iş getdiyinin şahidi olursan. Hər kəs bol məhsul yetişdirmək qayğısı ilə yaşayır. Bol məhsul isə xoş güzəran, firavan həyat üçün başlıca şərtdir.

Seyran CAVADOV,
"Azərbaycan"